# 26 aprel - Çernobıl Fəlakətinin Anım Günüdür

26 aprel 2023-cü il tarixdə “Çernobıl faciəsi”nin 37-ci ildönümü ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyətinin əməkdaşları və rayonda yaşayan Çernobıl əlilləri Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək ulu öndərə öz dərin hörmət və ehtiramlarını bildirmişlər. Çernobıl əlilləri onlara və ailə üzvlərinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirmişlər.



# Maarifləndirici tədbir

12 aprel 2023-cü il tarixdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin (DYNX) təşkilatçılığı və Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə rayon ərazisində yanğın hadisələrinin qarşısının alınması istiqamətində maarifləndirici tədbir keçirilib. Tədbirdə FHN-nin DYNX-nin, Şimal-Qərb Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin, həmin idarənin Qəbələ rayon şöbəsinin, Qəbələ RİH-nin nümayəndələri, bələdiyyə sədrləri, xidmət sahələrinin rəhbərləri, sahibkarlar və fermerlər iştirak ediblər. Tədbirdə çıxış edən FHN-nin DYNX-nin Yanğına qarşı təbliğat şöbəsinin mütəxəssisi Nizami Fərəcov və FHN-nin DYNX-nin Şimal-Qərb Regional DYNİ-nin rəisi daxili xidmət polkovniki Natiq Mirzəyev hər bir yanğının fövqəladə hadisə olduğunu, çox vaxt böyük yanğınların kiçik yanğınlardan törəndiyini və kiçik yanğın hadisələrinə əhəmiyyətsiz yanaşılmasının düzgün olmadığını vurğulayıblar. Həmçinin məişət tullantılarının, yaşayış məntəqələrində qurumuş kol-kosun yandırılmasının yaxınlıqda yerləşən digər obyektlərdə yanğın təhlükəsi yaratmaqla yanaşı, mühəndis kommunikasiya sistemlərinin sıradan çıxmasına səbəb olduğunu, bu kimi halların qarşısının alınması məqsədilə yerli özünüidarəetmə orqanları tərəfindən əhali arasında bu istiqamətdə mütəmadi qaydada maarifləndirmə və təbliğat işləri aparılmalı olduğunu bildiriblər.



# Əmək yarmarkası keçirilmişdir

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Dövlət Məşğulluq Agentliyinin Şəki-Zaqatala Regional Məşğulluq filialının Qəbələ Xidmət şöbəsinin dəstəyi ilə əmək yarmarkası keçirilmişdir. Qəbələ, Oğuz və Ağdaş rayonundan olan sakinlərin iştirak etdiyi yarmarkada 17 müəssisə tərəfindən 207 vakansiya əmək yarmarkasına çıxarılmış, 400-dən artıq vətəndaş müraciəti olmuşdur.



# Qəbələdə Yengicə su anbarı tikiləcək

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev “Yengicə su anbarının tikintisi haqqında” Sərəncam imzalayıb. Sərəncamda qeyd olunub ki, son illərdə ölkədə su ehtiyatlarından səmərəli istifadənin və su təsərrüfatı obyektlərinin idarə olunmasının təkmilləşdirilməsi, müasir tələblərə cavab verən meliorasiya və su təsərrüfatı obyektlərinin qurulması, eləcə də bu sahədə uçot və nəzarətin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülüb. Bununla yanaşı, son dövrlərdə müşahidə edilən qlobal iqlim dəyişmələri, dünyada orta temperaturun yüksəlməsi, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatının azalması, digər tərəfdən, suya tələbatın artması məhdud su ehtiyatlarına malik olan ölkəmizdə su ehtiyatlarının artırılması və sudan səmərəli istifadə üçün təxirəsalınmaz tədbirlər görülməsini zəruri edib. Bu istiqamətdə fəaliyyətin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı”nda nəzərdə tutulduğu kimi Qəbələ rayonunun ərazisində Yengicə su anbarının tikintisi üzrə zəruri texniki-iqtisadi əsaslandırma və layihələndirmə işləri başa çatdırılıb. Sərəncamın məqsədi ölkədə su ehtiyatlarının artırılması, əkinəyararlı torpaqların genişləndirilməsi, müasir təsərrüfatların yaradılmasının və əhalinin məşğulluğunun artırılmasının təşviqi üçün Qəbələ rayonunda su anbarının tikintisidir. Sərəncamda Qəbələ rayonunda Yengicə su anbarının tikintisi ilə bağlı müvafiq tədbirlər görülməsinin təmin edilməsi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə tapşırılıb. Həmçinin Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Qəbələ Rayon İcra Hakimiyyəti və digər aidiyyəti dövlət orqanlarına (qurumları) Yengicə su anbarının tikintisindən irəli gələn məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görmək barədə tapşırıq verilib. Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi aidiyyəti üzrə su anbarının cari və növbəti illərdə tikintisinin maliyyələşdirilməsi üçün zəruri tədbirlər görmələri, Nazirlər Kabinetinə isə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.



# Seminar-müşavirə keçirilib



Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Qəbələ rayon Dövlət Aqrar İnkişaf Mərkəzində baramaçılığın və tütünçülüyün inkişafı mövzusunda seminar-müşavirə keçirilib. Rayon icra hakimiyyətinin, dövlət aqrar inkişaf mərkəzinin əməkdaşlarının, bələdiyyə sədrlərinin, sahibkarların və fermerlərin iştirak etdiyi müşavirəni rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev açaraq tütünçülüyün və baramaçılığın əhalinin məşğulluğunun təmin edilməsinə və sosial rifahının daha da yaxşılaşdırılmasına verdiyi töhvələrdən danışıb. Daha sonra mövzu ətrafında fikir mübadiləsi aparılıb, barama və tütün istehsalçılarını maraqlandıran suallar mütəxəssislər tərəfindən cavablandırılıb.

# 31 mart - tariximizin qanlı salnaməsi

Rayon Tarix Diyarşünaslıq Muzeyində "31 mart tariximizin qanlı salnaməsi" adlı tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə muzeyin direktoru Bəxtiyar Vəliyev açaraq 1918-ci ilin mart soyqırımının xalqımız tərəfindən anılmasında ümummilli lider Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli Fərmanının xüsusi əhəmiyyətindən danışmış, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə soyqırım siyasəti yürütdüyünü, düşmən bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirdiyini vurğulamışdır. Tədbir iştirakçıları mövzu ətrafında çıxışlar edərək, keçmiş Rusiya imperiyası və İran arasında gedən müharibə nəticəsində Azərbaycanın bölüşdürülməsindən sonra tarixi torpaqlarımızda ermənilərin kütləvi şəkildə məskunlaşdırılması, 1905-ci və 1918-ci illərdə Çar Rusiyasının və bolşeviklərin köməyi ilə erməni daşnaklarının törətdiyi qırğınlar, 1920-ci illərdə ərazilərimizin hissə-hissə Ermənistana verilməsi, 1948-1953-cü illərdə sovet hökumətinin qərarı ilə soydaşlarımızın Ermənistandan deportasiyasından, 1992-ci ilin fevral ayının 26-da baş vermiş Xocalı soyqırımından bəhs etmişlər. Sonda “31 mart azərbaycanlıların soyqırımı”na aid videoçarx nümayiş etdirilmişdir.

